

# Mənim Tanrım gözəllikdir, sevgidir...

Keçmiş Kommunist, indiki İstiqlaliyyət küçəsində yerləşən Hüseyn Cavidin ev muzeyi tarixi binadır. Hacı Zeynalabdinin himayəsi ilə tikilmiş bina Qızlar Gimnaziyası üçün nəzərdə tutulmuş, bir müddət belə fəaliyyət göstərdikdən sonra Parlament binası olmuşdur. 1920-ci ildə isə binanın birinci və ikinci mərtəbəsində "Darülmüəllim" yerləşmişdir. Binanın yuxarı mərtəbəsində isə burada dərs deyən müəllimlər yaşayırdılar. Bu müəllimlərdən biri də əbədiyaşar şair Hüseyn Cavid olmuşdur. Hüseyn Cavid ikiotaqlı mənzildə həyat yoldaşı Mişkinaz xanım, övladları - Ərtoğrol və Turanla yaşamışıdır. Ekspozisiya ilə tanışlıqdan öncə muzeyin direktoru Gülbəniz xanım Babaxanlı ilə söhbətləşirik. Muzeyin tarixi, fəaliyyəti, nəşrləri barədə ümumi məlumat verir. Bu yaxınlarda "Heydər Əliyev və Hüseyn Cavid" adlı monoqrafiyanın təqdimatı barədə danışır. Həmçinin maraqlı bir faktı da qeyd edir ki, Azərbaycanda internet təzə-təzə dəbə düşdüyü vaxt virtual fəaliyyət göstərən ilk muzey bu muzey olmuşdur. Təsadüfi deyil ki, Hüseyn Cavidin ev muzeyinin saytı beynəlxalq mükafata da layiq görülüb.

Daha sonra ekspozisiya ilə tanışlıqda mənə bələdçi Lalə xanım yardımçı olur. Sözünə də Hüseyn Cavidin bu evə köçməsinin tarixçəsindən başlayır. Dahi şairimiz 1921-ci ildə Darülmüəllimdə işə başlayandan sonra ailəsi ilə bu mənzilə köçmüşdür. Onlar burada 17 il-1937-ci il 4 iyun gecəsinə qədər yaşamışdılar. Hüseyn Cavid həmin gecə saat 12-yə işləmiş həbs olunur. Bununla da bu evdə də, Hüseyn Cavidin ailəsində də həyatın nəbzi dayanır...

Birinci otağın girişindəki divara Mişkinaz xanımın gözlərində kədər əks olunan böyük portreti asılıb. Hansı ki, portretdəki xanım hələ cavandır, hələ xürrəm ömrünə qara günlərin kölgəsi düşməyib... Görünür, bu rəssamın həssaslığı, portreti çəkərkən Mişkinaz xanımın yaşadıqlarını unuda bilməməsinin əksidir. Portretin altında Mişkinaz xanımın xatirələri, Hüseyn Cavidin ona yazdığı məktublar da asılıb. Onlar 1918-ci ilin avqust ayında ailə həyatı qurublar. Mişkinaz xanım xatirələrində yazır:

*"Biz, 1918-ci ilin avqust evləndik. Çox kiçik, xudmani toy məclisi oldu. Toydan bir-iki gün sonra Cavid mənə dedi ki, axı mən hərdənbir cızmaqara edirəm, gərək mənim ilk oxucularımdan biri də sən olasan, mən onun oxucusu ola bilməzdim, çünki savadım yox idi. Cavid mənə dərs deməyə başladı...".*

Şəklin altında Hüseyn Cavidin Mişkinaz xanıma yazdığı məktub da asılıb:

*"... Qəribsəməyə başladım, tanış da çox az... Pənah bəy də dünən yox srağagün gəldi. Kislovodskın yağmurları dad-bidad eliyir. Dışarı çıxmaq mümkün deyil.*

*...Gələn dəfə Ərtoğrola şəkilli otkrıtka yazacağam, bu dəfə bağışlasın.*

*Çoçukları öpürəm.*

*Ərtoğrol Həliminən də dərslərinə baxsın...*

*Baqi ehtiram, səni öpürəm, Cavid.*
*30 iyun, 1927, Kislovodsk".*

Qeyd etmək lazımdır ki, oktyabr ayı Cavidlər ailəsi üçün çox əziz idi. Çünki ailənin üç üzvü - Hüseyn Cavid, Ərtoğrol və Turan bu ayda dünyaya gəlmişdilər. Hüseyn Cavid övladlarının doğum tarixlərini Şəmsəddin Sami bəyin "Qamusi- Türki" kitabında hicri tarixilə qeyd etmişdi ki, həmin kitab hal-hazırda muzeydə nümayiş olunur. Onu da vurğulamaq lazımdır ki, şairin "Tuquş" deyə müraciət etdiyi oğlu Ərtoğroldan və Turandan başqa Tomris adında qızı da olmuşdur. Tomris difteriya xəstəliyinə görə uşaqkən dünyasını dəyişmişdir.

Otağın digər küncünə qoyulmuş köhnə sandıq diqqəti tez cəlb edir. Bu H.Cavidin qohumları tərəfindən muzeyə hədiyyə olunmuşdur ki, onun da özünəməxsus bir əhvalatı vardır. Belə ki, Hüseyn Cavid bacısı Umusəlimə artıq onun evlilik yaşının çatdığını və ailə qurmasının vacib olduğunu deyir. Lakin Hüseyn Cavid görmədiyi və bəyənmədiyi bir xanımla ailə həyatı qurmaq istəmirdi. Təbii ki, o dövrdə bütün xanımlar çadraya büründükləri üçün şairin bu arzusu qeyri-mümkün idi. Belə olduqda Umusəlimə qızının rəfiqəsi Mişkinazı evlərinə qonaq dəvət edir. Hüseyn Cavid isə həmin bu sandıqın üzərini yığılmış yükün arxasında gizlənib gələcək adaxlısını gözləyir. Mişkinaz xanım otaqda kişi olmadığını zənn edib çadrasını açır və beləliklə, H.Cavid onu görüb bəyənir. Bundan sonra ailə qurmağa razılıq verir...

Otağın mərkəzində və onunla üzbəüz divarda iki əşya -Cavidlər ailəsinin iki xilaskarı yerləşir: Yemək masası və tikiş maşını...

Hüseyn Cavidi həbs etmək üçün gələnlər axtarış apardıqları zaman onun bəzi əsərlərini tapa bilməmişdilər. Onların heç birinin ağlına gəlməmişdi ki, şair əsərlərini masanın gizli siyirmələrində gizlədə bilər. Muzeyin açılışı zamanı Turan xanım bu əhvalatı Heydər Əliyevə danışanda o, həddindən artıq təəccüblənir ki, necə ola bilər təhlükəsizlik işçiləri bunu nəzərdən qaçırsın. Heydər Əliyev bu hadisəni möcüzə adlandırmışdır.

Masa ilə üzbəüz H.Cavid ailəsinin digər xilaskarı tikiş maşını nümayiş olunur. Hüseyn Cavid həbs olunduqdan sonra onun ailəsini də bu evdən çıxarıb şəraitsiz və insanın yaşaması üçün uyğun olmayan zirzəmiyə yerləşdirirlər. Burada Mişkinaz xanım övladlarına baxmaq üçün çox əziyyətlərə qatlanır. O, Klara Setkin adına tikiş fabrikinə işə düzəlsə də, tezliklə vətən xaininin həyat yoldaşı olduğuna görə buradan xaric olunur. Lakin Mişkinaz xanım gizli şəkildə sifarişlər almağa davam edir və bu tikiş maşınının vasitəsilə pul qazanıb, ailəsinə baxır.

Yataq otağında əsasən, H.Cavidin yazı masası, kitabları, gözlükləri, siqar qutusu, Ərtoğrola aid bir neçə rəsm və müəllimi Üzeyir Hacıbəyova yazdığı məktublar yerləşir. Ərtoğrol atası kimi həddindən artıq istedadlı olmuşdur. O, məktəbi bitirdikdən sonra Konservatoriyaya daxil olmuş burada görkəmli Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyovdan təhsil almışdır. Onların arasında müəllim tələbə münasibətindən əlavə ata-oğul münasibəti də olmuşdur. Belə ki, Ərtoğrol əsgərlikdə olduğu vaxt müəlliminə məktub yazmış, bacısı Turanı işə düzəltməyini xahiş etmişdi:

*"Hörmətli, Üzeyir bəy!*

*Əsgərliyə getməzdən əvvəl sizinlə görüşmək istədimsə də qismət olmadı. Yeganə narahatçılığım anam və bacımın acınacaqlı halıdır. Rica edirəm, keçdiyiniz səmimi dərs illəri və ümidli gələcək xatirinə mümkün ola biləcək yardımınızı əsirgəməyin.*

*Anam uşaq bağçasında işləyə bilər. Bacım həm bağçada, həm maşiniskalıq, həm də ibtidai məktəbdə dərs (Matematika, dil) deyə bilər.*

*Lakin ən lazım məsələ çətin hallarda nəzarət etmək, ürək vermək, mənəvi yardımdır. Zənn edirəm, rədd etməzsiniz.*

*Hörmətlə, Ərtoğrol*
*25 fevral 1942-ci il".*

Üzeyir bəy də onun bu istəyinə biganə qalmayaraq Turan Cavidi radioda işə düzəldir. Qeyd etmək lazımdır ki, bu Turan xanımın ilk iş yeri idi. Turan xanımın bu məktubla bağlı xatirələrini Azər Turanın "Cavid Əfəndi..." kitabında oxuyuruq:

*"Məktubu Üzeyir bəyə verdim. Oxudu və Radio Komitəsinə zəng vurdu. Kim idi Üzeyir bəyin bir sözünü iki edən. Məni işə götürdülər. Amma Üzeyir bəylə bağlı bir yalnışımı da söyləmək istəyirəm. Üzeyir bəy Ərtoğrolun məktubunu oxuyub, Radio Komitəsinə zəng vurandan sonra həmin məktubu mənə qaytardı. Uzun illər Üzeyir bəyə həm şükrançı oldum, həm də ürəyimdə bir qırıqlıq qaldı.*

*Düşünürdüm ki, Üzeyir bəy yəqin Ərtoğrolun məktubunu özündə saxlamaqdan qorxdu, çəkindi...*

*Amma çox-çox illər sonra Üzeyir bəyin arxivində Ərtoğrolun Gürcüstandan ona yazdığı məktubları görəndə təskinlik tapdım. Üzeyir bəy aldığı çoxlu məktubların içərisində Ərtoğrolun məktublarını ayrıca sevgi ilə qoruyub saxlamışdı. Bunu biləndən sonra Üzeyir bəylə bağlı keçirdiyim ikili duyğularıma nöqtə qoyuldu. Həm sevinirdim, həm də Üzeyir bəy barədə yalnış düşündüyüm üçün və onunla bağlı şübhələrimi uzun illər içimdə daşıdığıma görə özümü qınayırdım".*

Otaqdakı maraqlı eksponatlardan biri də Hüseyn Cavidin Sibirdəki qəbrindən gətirilmiş torpaqdır ki, Turan xanımın istəyi ilə o qutu hələ də açılmayıb. Otağın divarından asılmış saat isə Hüseyn Cavid həbs olunduğu gün Mişkinaz xanım tərəfindən dayandırmışdır. Saatın əqrəbləri 12-yə 20 dəqiq işləmişi göstərir...

Lalə xanım Ərtoğrolun əşyalarının bir qisminin digər otaqda - Pənah Qasımovun yaşadığı mənzildə olduğunu qeyd edir. O otağa keçirik. Burada Ərtoğrola məxsus yazı masası yerləşir. Masanın üzərində onun qeyd dəftərlərini, rəsm çəkmək üçün boyalarını, təqvimini, eləcə də bacısı Turanın ona hədiyyə etdiyi portfleni görmək olar. Bütün bu əşyaların hamısını Turan xanım təkbaşına min bir əziyyətə qatlanaraq toplamışdır. Onun ən böyük arzusu bir vaxtlar yaşadıqları evin muzeyə çevrilməsi idi. Bu arzuyla da Ümummilli lider Heydər Əliyevə müraciət etmiş və müsbət cavab almışdı. Muzey çoxdan fəaliyyət göstərsə də rəsmi açılışı 2002-ci ildə olmuşdur.



Turan xanım atasının əsərlərini yenidən toplayaraq nəşr etdirmək qərarına gələndə Tiflisə, İrəvana qədər gedib çıxır. Onu da qeyd etmək lazımdır ki, erməni və gürcü rejissorları dramaturqun əsərlərini qızına pul ilə satırlar. Belə ki, Turan xanım "Xəyyam" və "Knyaz" əsərlərini pulla alır. Maraqlı bir fakt da ondan ibarətdir ki, Sovet illərində H.Cavidin bəzi əsərləri yenidən çap olunmuş və bu zaman müəyyən dəyişikliklər olunmuşdu. "şu" "bu"yla, "bən" "mən"lə əvəzlənmişdi. Məlumdur ki, Hüseyn Cavid yazılarını Osmanlı türkcəsində yazırdı və bütün yazılarının sonunda bir qeyd edirdi: Mənim imlama toxunulmasın. Turan xanım bu qeydi vəsiyyət kimi qəbul edib onu həyata keçirmək üçün atasının bütün çap olunmuş əsərlərinin üzərində yenidən işləyərək orijinal varianta uyğunlaşdırır. Turan xanımın qeyd və düzəlişlərinin olduğu həmin kitablar hal-hazırda muzeydə saxlanılır.

Muzeyin maraqlı eksponatlarından biri də xalçaçı rəssam Afaq Kərimova tərəfindən bütün ailə üzvlərinə həsr olunmuş xalçalardır ki, onların həyat yollarını özündə əks etdirir. Hüseyn Cavidə həsr olunmuş xalça xüsusilə diqqəti cəlb edir. Belə ki, xalçanın üzərində H.Cavidi Sibirə aparan dəmir yollarının təsviri var. Xalçanın sonunda isə H.Cavidin bütün məktublarında yazdığı cümlə yer alıb: "Turandan muğayat olun!". Əslində, bu cümlə iki məna ifadə edir. Bu şairin həm qızı Turandan, həm də Turan elindən nigaranlığının ifadəsidir...

Ekspozisiyada, həmçinin, muzeyin nəşrləri də nümayiş olunur ki, bunlardan ən çox maraq doğuranı Ərtoğrolun şəxsi qeydləri əsasında topladığı folklor materiallarının çap olunduğu kitablar və Hüseyn Cavid haqqında yazılmış məqalələrin yer aldığı "Cavidşünaslıq" toplusudur...

Maraqlı faktlardan biri də Hüseyn Cavidin adına planetin olmasıdır. 1997-ci ildə Ukrayna alimi Nikolay Çernıx balaca bir planet kəşf etdikdən sonra ona hansı adı verəcəyini düşünür. Bu zaman şairin rus dilindəki iki cildlik əsərləri ilə tanış olur və planetə Hüseyn Cavidin adını verməyi qərara alır...





**Hazırladı:**
**Cahan Seyidzadə**